Vüqar Rəhimzadə:

## Rəy sorğularının nəticələri Prezident İlham Əliyevin siyasətinə və reallaşdırdığı islahatlara böyük ictimai inamın və etimadın olduğunu isbatlayır



Bu gün Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişafını qoruyub saxlayır. Yeni dövrün tələblərinə və çağırışlarına uyğun islahatların həyata keçirilməsi, dövlətimizin perspektivi ilə əlaqəli ciddi addımların atılması, əhalinin rifah halının daha da yaxşılaşdırılması üçün davamlı və təsirli tədbirlərin görülməsi müşahidə olunan inkişaf tendensiyasının indikatorlarıdır. Məhz, bu səbəbdən də ölkədə keçirilmiş rəy sorğularının nəticələri Prezident İlham Əliyevin siyasətinə və reallaşdırdığı reformalara böyük ictimai inamın və etimadın olduğunu isbatlayır.

**Bunu Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında deyib.**

Vüqar Rəhimzadə bildirib ki, Sosial Tədqiqatlar Mərkəzi "Prezidentin fəaliyyəti ictimai rəydə" hesabatını dərc edib və hesabat hazırlanarkən həyata keçirilən sorğu üçün areal Azərbaycanın iqtisadi rayonları üzrə müəyyənləşdirilib: "Sorğunun demoqrafik göstəricilərinə görə, 1316 respondentin 67,6 faizi kişi, 32,4 faizi qadındır. Əsas yaş qrupu 26-35, yəni 34,3 faizdir. Təhsil səviyyəsinə görə, tam orta təhsillilər üstünlük təşkil edib ki, bu da 45,1 faizdir. Mərkəz tərəfindən keçirilmiş sorğunun nəticələri göstərir ki, vətəndaşların 77,5 faizi ölkə Prezidentinə inam və etimadının daha da artdığını, 18,1 faiz respondent isə həmişəki sabit inam və etibarının qorunub saxlandığını bildirib. Ümumiyyətlə, respondentlərin 84,9 faizi Prezidentin "Valday" Diskussiya Klubunun plenar iclasındakı çıxışının əhəmiyyətini yüksək qiymətləndirib. Prezidentin oktyabrın 11-də Aşqabadda MDB Dövlət Başçıları Şurasının Sammitindəki çıxışı rəyi soruşulanların 85 faizi tərəfindən rəğbətlə qarşılanıb. Sorğunun nəticələri dövlət başçısı tərəfindən həyata keçirilən islahatlara əhalinin inamının ən yüksək səviyyədə olduğunu göstərdi. Ümumilikdə, respondentlərin 87,6 faizi Prezidentin həyata keçirdiyi islahatları dəstəkləyir, onu əhəmiyyətli hesab edir. Rəyi soruşulanların 92,7 faizi Prezidentin ordunun və bütövlükdə Silahlı Qüvvələrin formalaşdırılması sahəsində uğurlu fəaliyyətini qeyd edib. Onun ardınca 92,4 faiz respondent isə dövlət başçısının xarici siyasət fəaliyyətini uğurlu hesab edir. Rəyi soruşulanların 83,7 faizi hesab edir ki, ölkə Prezidenti tərəfindən həyata keçirilən kadr və struktur islahatları onların gözləntilərini doğruldur".

"Sorğunun nəticəsindən bir daha görünür ki, islahatların dərinləşməsi və geniş miqyas alması ilə Prezidentə olan ictimai rəğbət və dəstək daha da artmaqdadır", - deyən Vüqar Rəhimzadə əlavə edib ki, ölkə əhalisi dövlət başçısının öz fəaliyyətində xalqın maraqlarından, tələbatlarından və gözləntilərindən çıxış etdiyi qənaətindədir.

Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasəti onun reytinqinin ictimai rəydə yüksəldiyini nümayiş etdirir və bu tendensiya islahatların davam etməsi fonunda güclənir: "Azərbaycan Prezidentinin fəaliyyətində ictimai rəyin rolunun yüksək olması sorğunun nəticələri ilə təsdiqini tapır və bu fikir aparılan kadr islahatlarına da aid edilir. Əhali oktyabr ayında Prezidentin daxili və beynəlxalq müstəvidəki fəaliyyətini yüksək qiymətləndirir, ona olan etimadın artdığını qeyd edir. Prezident İlham Əliyevin anti-Azərbaycan qüvvələrinə qarşı siyasi iradəsi, konkret mövqeyi, milli maraqların müdafiəsi fəaliyyəti ictimaiyyətdə böyük rəğbət və inam hissi formalaşdırır".

Siyavuş Novruzov:

## AXC-Müsavat cütlüyü hakimiyyətdə olduğu dövrdə şiddət-güc ritorikasını onlar kimi düşünməyən hər kəsə qarşı tətbiq edirdi

**AXC-Müsavat cütlüyü hakimiyyətdə olduğu dövrdə şiddət və güc ritorikasını cəmiyyətdə onlar kimi düşünməyən hər kəsə qarşı tətbiq edirdi. Bunu Trend-ə Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP İcra katibinin müavini Siyavuş Novruzov deyib.**



S.Novruzovun sözlərinə görə, Prezident İlham Əliyev Sumqayıtın 70 illiyinə həsr olunmuş tədbirdə çıxışı zamanı AXC-Müsavat hakimiyyətinin çirkin əməlləri haqda danılmaz faktları açıqladı.

S.Novruzov vurğulayıb ki, AXC-Müsavat cütlüyü ulu öndər Heydər Əliyevin həm beynəlxalq, həm də ölkədaxili nüfuzundan o dərəcədə qorxurdular ki, onun rəhbərliyi altında yaradılacaq Yeni Azərbaycan Partiyasının təsis konfransını keçirmək üçün Bakı şəhərində yer ayırmadılar: "Məlum olduğu kimi, 500-dən çox nümayəndə olduqca çətin şərtlər altında, blokada şəraitində olan Naxçıvana yollanaraq təsis konfransını orada keçirməyə nail oldular. Onlar hətta Heydər Əliyevin hüquqlarını müdafiə komitəsinin mətbuat konfransına o dövrün daxili işlər nazirinin himayəsində olan "Bozqurd"çuların basqınını təşkil edərək görkəmli akademiklərimiz Fərəməz Maqsudov və Ziya Bünyadova güc tətbiq etmiş, həbsə atmışdılar".

Deputat vurğulayıb ki, ölkədə terror və qorxu mühiti yaratmaq üçün "xüsusi səlahiyyətlər" verilmiş o dövrün Daxili İşlər naziri İsgəndər Həmidovun müxalif partiyaların televiziya debatı zamanı studiyaya etdiyi basqın, müxalif partiya liderinin döyülərək avtomobilin yük yerinə salınması, baş redaktora qəzet yedizdirilməsi, cənub zonasında dinc sakinlərə qarşı həyata keçirilmiş "subtropik əməliyyatı" AXC-nin "demokratik idarəçiliyinin" yalnız bəzi nümunələridir:

"Kriminogen durum o qədər gərginləşmişdi ki, başına 10 nəfər silahlı toplayan hər kəs Bakıda və əyalətlərdə hüququ və qanunu əvəz edirdi. İmkanlı şəxslərin evlərinə polis tərəfindən qanunsuz baxışlar həyata keçirilir, bəzən isə açıq şəkildə talanırdı.

Belə idarəçiliyin faciəli nəticələri özünü çox da gözlətmədi. Ermənistanla aparılan müharibədə ciddi məğlubiyyətlər və itkilər ard-arda gəlməyə başladı. 1993-cü ilin aprelində müharibənin sonrakı gedişatına birbaşa öldürücü təsir göstərəcək mühüm strateji əhəmiyyətli Kəlbəcər rayonu itirildi.

Bütün bu faciələrin birbaşa günahkarlarından olan Əli Kərimli indi "cəsarət", "sədaqət" və s. bu kimi ali kateqoriyalardan dəm vurur.

Əvvəlcə "sədaqət" barədə. AXC hakimiyyətinin funksionerlərinin böyük əksəriyyəti Azərbaycan Milli Elmlər Akademiyasının elmi işçiləri və ya əməkdaşları idi. Lakin hakimiyyətə gəldikdən sonra ilk işlərindən biri AMEA-nı bağlamaq və ləğv etmək istiqamətində cəhdlər göstərmək oldu. Yalnız ölkənin elmi ictimaiyyətinin ciddi etirazlarından sonra bu üzdəniraq təşəbbüsün qarşısı alındı. Yəqin ki, bu cəhdin səbəbi uzun illər bu qurumda çalışaraq ortaya heç bir sanballı elmi əsər qoya bilməyən cəbhəçilərin bu idarədən almaq istədikləri qisas hissindən qaynaqlanırdı.

Bəzən AXC-Müsavat cütlüyünün hakimiyyətdə olduğu bir ilin bütün əsas problemlərin mənbəyi kimi göstərilməsinə qarşı çıxılır. Halbuki bəzən nəinki bir il, hətta bir ay və bir həftə belə bir xalqın tarixində taleyüklü rol oynaya bilər.

Əli Kərimlinin isə fərdi sədaqət hissini yəqin ki, Azərbaycan cəmiyyətində bilməyən yoxdur. "Xəbərçilik" fəaliyyətinə BDU-da komsomol katibi olduğu zaman rektora göstərdiyi xüsusi xidmətlərlə başlayan bu şəxs dostlarını sataraq özünə karyera quranlardandır. Daha sonrakı mərhələdə mənsub olduğu siyasi təşkilatın qarşısında səcdə etdiyi liderinə xəyanət edərək onun haqqında mətbuata rüsvayedici məlumatlar ötürməyə başladı. Məqsəd onu devirib təşkilat rəhbəri olmaq idi. Sonradan zamanla bu pis vərdişini daha da "inkişaf" etdirərək, öz ölkəsindən qərb dövlətlərinə və beynəlxalq təşkilatlara çuğulçuluq etməyə başladı. Görünür, bu xarakter onda daimidir və atalar demişkən - qozbeli qəbir düzəldər".

## YAP Səbail rayon təşkilatının fəalları Bilgəhdə yerləşən sosial xidmət müəssisəsini ziyarət ediblər

**Yeni Azərbaycan Partiyasının (YAP) Səbail rayon təşkilatı və bir qrup bağça və məktəb müəlliminin təşəbbüsü ilə Bilgəhdə yerləşən Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət müəssisəsində görüş keçirilib. Bu barədə AZƏRTAC-a YAP Səbail rayon təşkilatından məlumat verilib.**

Təşkilatın fəalları bir qrup bağça və məktəb müəllimi ilə birgə sosial xidmət müəssisəsində yaşayan müharibə və əmək əlilləri ilə görüşüblər. YAP-ın yaradılmasının 27-ci ildönümü münasibətilə musiqi proqramının və süfrənin təşkil olunduğu tədbirdə ahıllarla birlikdə yaddaqalan bir gün keçirilib.

Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev bu görüşün hakim partiyanın yaradılmasının 27-ci ildönümünün qeyd olunduğu tarixə təsadüf etməsindən şad olduğunu bildirib. O, Yeni Azərbaycan Partiyasının müasir Azərbaycan dövlətçiliyinin qurulmasında və ölkəmizin ictimai-siyasi həyatında müstəsna rolu olduğunu, öz sıralarında cəmiyyətin bütün zümrələrini, o cümlədən ahılları, veteranları birləşdirdiyini və onların partiya sıralarında bu gün də fəal iştirak etdiklərini bildirib.



Ş.Hacıyev hakim partiyanın təsis olunmasını zəruri edən obyektiv səbəblər, tarixi şərait və müstəqilliyin ilk illərində ölkəmizdə mövcud olan acınacaqlı ictimai-siyasi vəziyyət, hakimiyyət böhranı və təhlükələr haqqında danışıb, ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövlətçiliyi üçün yerinə yetirdiyi taleyüklü xilaskarlıq missiyalarını vurğulayıb. Deputat qeyd edib ki, müstəqil Azərbaycanın İlham Əliyev dövrü dinamik inkişaf, tərəqqi, modernləşmə dövrüdür. Bu gün ölkəmiz cəmiyyət həyatının bir çox sahələrində misilsiz uğurlara imza atır. Prezidentimiz, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin milli maraqlara söykənən siyasətinin başlıca amalı Azərbaycanı müstəqil, qüdrətli və güclü sosial rifah dövlətinə çevirmək və işğal altında olan torpaqlarımızı düşmən tapdağından azad etməkdir. İqtisadiyyat inkişaf etdikcə əhalinin, o cümlədən xüsusi qayğıya ehtiyacı olan insanların, ahılların, əlillərin, veteranların, şəhid ailələrinin, kimsəsizlərin sosial rifahının yüksəldilməsi üçün əlavə imkanların yaranması haqqında ətraflı məlumat verən Ş.Hacıyev deyib ki, 2019-cu ilin əvvəlindən uğurla icra olunan sosial proqramlar çərçivəsində dörd milyon iki yüz min nəfər əhalinin həyat səviyyəsi yüksəlib, bu məqsədlər üçün dörd milyard manat vəsait sərf olunub. 2020-ci ilin büdcəsinin Azərbaycanın müstəqillik tarixinin ən sosialyönümlü büdcəsi olduğunu vurğulayan deputat qeyd edib ki, büdcənin 39 faizi sosial xərclər üçün nəzərdə tutulub. Bu isə o deməkdir ki, əməkhaqları, pensiyalar, müavinətlər yenə də artırılacaq və əhalinin həyat səviyyəsi daha da yüksələcək.

YAP Səbail rayon təşkilatının sədri xüsusi qayğıya ehtiyacı olan ahıl insanlar və veteranlar üçün dövlət tərəfindən yaradılan şəraitə və görülən işlərə görə ölkə başçısı İlham Əliyevə, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya və Fondun vitse-prezidenti Leyla Əliyevaya təşəkkür edib.

Müəssisənin direktoru Qətibə Əsədova və ahıllar adından danışan sakinlər Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ahıl insanlara diqqət və qayğısından razılıqlarını bildiriblər. Onlar, eyni zamanda, sosial müavinətlərin mütəmadi olaraq artırılmasına görə dövlətimizin başçısına təşəkkür ediblər.